# Oxuyar sözümü bir eşq dəlisi



*İltimas SƏMİMİ,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*Prezident mükafatçısı*

### ÜRƏYİMİZİN ATƏŞİDİR

Torpaq da soyuq,
Daş da,
Ürəyin ağrısını duymaz.
Ümidi boşa çıxanların
Üzündə təbəssüm olmur.
Yer kürəsi başdan-başa
Matəmə bürünüb sanki,
Dərdimizi çiynimizdə
Bir ömür
Tabut-tabut daşıyırıq.
Hər gün bir xatirə kimi
Yaddaşımızda közərir.
Tüstüsü görünməyən
Bu atəş,
Ürəyimizin atəşidir.

06.03.2023.

### ÜMİDSİZLİYİDİR

Soyuq əllərindən
Taleyini oxudum,
Mənə yağışlı payızı,
Çovğunlu
Qışı xatırladan,
Ürəyinin ümidsizliyidir.

06.03.2023.

### YAŞA

Sağında dəmir bir qapı,
Solunda
Heç kimin adlamadığı
Dar bir yol.
Üstündə bir kimsəsizin
Acı xatirələri
Qurd-qurd ulamaqdadır.
Bir az da ərşə çəkilmiş
Yuxularına bənzəyir.
Bu da göz yaşlarına oxşayan
Son ümidin.
Çırpılır qapıya,
O yolu adlaya bilmir.
O yol da xatirələr sədd kimi,
Arzularını əyninə geyinib
Qalan ömrünü
Səssiz-səmirsiz yaşa.

06.03.2023.

### İNTİZAR YAMAN

Qəlbimdən bu eşqi silmək çox çətin,
Ümidi itirib ölərəm o an.
Deməyin, o gözəl deyil qismətin,
Gözümdə zülmətə dönər bu cahan.

Mənə ilham verən saf məhəbbətim,
Qələmim, kağızım, sözüm, söhbətim.
Bəxtimə yazılan xoş səadətim,
Onsuz ürəyimi yandırar hicran.

Sevən bir ürəyə toxunmaq günah,
Titrədər göyləri bu fəryad, bu ah.
Məni sevgilimə qovuşdur, Allah,
Salıb əldən məni intizar yaman.

08.03.2023.

### TAPACAQSAN

Dilsiz daşlar,
Lal baxışlar
Duya bilməz,
Dinə bilməz.
Kim anlayar səni, dostum.
Dərya dərdin bir damlası
Qabardıqca polad sinən,
Ürəyinin ağrıları artır yaman.
Yer gözündə zülmət kimi,
Axı necə qurtulasan
Bu dünyanın əzabından,
Zillətindən.
Daş deyilsən bir ömür sən
Hicranlara tablanasan.
Söyləməyə söz tapmıram,
Nə söz deyim,
Qəlbin bir az rahatlana?
Səni görüb susuram mən,
Bəlkə mənim susmağımdan
Sən təsəlli tapacaqsan.

12.03.2023.

### HEÇ ZAMAN

Oxuyar sözümü bir eşq dəlisi,
Duyar ürəyimin ağrılarını.
Bu dünya gözümdə bir qara zindan,
Çəkər sevgilimin intizarını.

Məcnuna çevirib, Fərhada dönər,
Yanar Kərəm kimi kül olub gedər.
Bilər məhəbbətin cəfası nədir,
Təkliyi özünə o da dərd edər.

Şairin çəkdiyi dərd adi deyil,
Hicranı dağ boyda, qəmi bir ümman.
Qara saçlarına vaxtsız dən düşüb,
Üzünə gülməyib tale heç zaman.

13.03.2023.

### YANDIRAR

Yorğunluğumu
Yollara sərdim.
Arxaya baxıb
Kölgə kimi
Arxanca
Süründüyümü gördün,
Dərdimi duymadın.
Heç nə olmamış kimi yeridin,
Göz yaşlarım içimə süzüldü,
Bir gün də ömrümdən
Uğursuz keçdi.
Sənə deməli olduğum,
Ən xoş sözlərim
Qaldı ürəyimdə.
Elə bil ümidim
Hər şeydən üzüldü.
Nə daşa çevrilə bildim,
Nə ağaca... Nisgilimi,
Ağrılarımı çiyinlərimdə
Tabut-tabut daşıdım.
Bəlkə nə vaxtsa
Anlayarsan məni,
Onda bu yer üzündə olmasam
Rəsmimə baxıb
Xatirələr yaddaşını
köz-köz yandırar.

18.03.2023.

### BƏYƏNMƏYƏCƏK

Allah, ovsundurmu, möcüzədirmi?
Doymadı gözlərim bu gözəllikdən.
Üzü günəş kimi şəfəqlər saçır,
Önündə müntəzir dayanıram mən.

Həyəcan içində dözməyir ürək,
Bu nə imtahandır, bu nə sınaqdır.
Dilimin ucunda sözlərim donur,
Pənahım bir qələm, bir də varaqdır.

O qara gözlərə yazılan şeir,
Dağları yerindən tərpədə gərək.
Coşa dəniz kimi şair ilhamı,
O nigar hər sözü bəyənməyəcək.

21.03.2023.

### AĞLAYAR

Axtardıqların
Bu yer üzündən
Çoxdan yox olmuş.
Nə yollarda
Ayaq izləri,
Nə də yaddaşlarda
Xatirələri qalıb.
Üstündən
Min il ötmüş kimi,
Görməyənlər xatırlamaz.
Çiyinlərində
Bir ömür qayğıları daşıyanların
Yaddaşında öz nisgili,
Öz qəmi.
Ümidi tükənənlərin
Səbiri az,
Hər doğan səhəri,
Son səhər bilib
Sarılar xatirələrə
Hönkür-hönkür ağlayar.

24.03.2023.

### BİLMƏZ

Əllərin budaqdan qopmuş
Payız yarpağı kimi,
Gözlərində sükut,
Ürəyində ötən illərin
Acı xatirələri.
Adladığın yolu kəfən kimi
Əyninə geyib,
Qalan ömrünü
Qarış-qarış gəz.
Göz yaşların
Sənə dənizi
Xatırlatsın.
Kimi dənizdən təsəlli tapır,
Kimi intiharla qurtuluş.
Səsi göylərə yetməyən
Ümidi tükənənlərin
Gözündə
Hər şey bitmiş olsa da,
Amma dərdini bir kimsə bilməz.

27.03.2023.

### SÜZƏR

Xəta da, bəla da sevgidən gəlir,
Acı, ağrısını çəkənlər bilər.
Gecələr tək-tənha ağlayanların,
Qəlbini bir ömür, bürüyər kədər.

Solar yarpaq -yarpaq xoş arzuları,
İtirər ağlını havalı gəzər.
Nakam sevgisiylə yenə baş-başa,
Bahar yağışı tək göz yaşın süzər.

27.03.2023.

### QƏM QOXUYUR

Yarımçıq qalan
Bir yazını xatırladan,
Nakam köçənlərin
Taleyini düşündükcə,
İçimdə ağrılarım
İlan-ilan qıvrılır.
Gözlərimdə intizar,
Ürəyimdə bir qış havası,
Ümidsizlik.
Gecələr yuxumu qarışdıran
Qəribə səslər.
Gözümün önündə
Donan zaman,
Yaddaşımı ağrıdan
Acı xatirələr.
Yarımçıq qalan
Sevincimiz kimi,
Demə ay da, il də
Yarımçıq imiş.
Göz yaşlarda islanan sözlər,
Bir az hicran,
Bir az nisgil,
Bir az da qəm qoxuyur.

29.03.2023.

### KİMİ İŞIĞIMA CAN ATIR

Çağırmadım səni,
Nə gecələr tənhalıqdan
Hönkür-hönkür ağlayanda,
Nə gündüzlər dərdləşməyə
Bir kimsə tapmayanda.
Hardan gəlib
Ürəyimi sancdın,
Dünya başıma daralıb
Bitdi son ümidim də,
İndi ruhum səmalarda dolaşır.
İndi mən ay işığıyam,
Süzülürəm yer üzünə.
Kimi gizlənməyə
Kölgə axtarır,
Kimi işığıma can atır.

29.03.2023.

### ARZULAR MƏZARLIĞIDIR

Bir ovuc söz səpim
Qaranlıq gecənin
Köksünə,
Qoy ağacların,
Daşların yuxusu qarışsın.
Ümidi hər şeydən üzülənlərin
Gözləri qurtulsun
Bu qaranlıqdan.
Yollar,
Küçələr səssiz-səmirsiz.
Bir uşaq təbəssümünə
Həsrət qalan bu şəhər,
Qaranlığa bürünüb.
Göy üzündə,
Nə Ay var,
Nə ulduzlar sayrışır.
Ürəyimin tənhalığına bənzəyən,
Bu Yer kürəsi,
Başdan-başa arzular
Məzarlığıdır.

05.04.2023.

### ÖLÜM

Sən də ürəkləri üşüdən,
Yeri-göyü titrədən
Acı bir qorxu oldun.
Keçdin ruhumdan,
Bu dünyanı gözümdən
Bir dar quyuya çevirdin.
Ümidim
Hər şeydən üzüldü,
Qurtulmağa bir yol var,
O da ölümdən keçir.
İçimi köz-köz yandıran,
Üzümə şillə tək çırpılan,
Arzularımı payız
Yarpağına döndərən ölüm.

05.04.2023.

### SƏSSİZ-SƏMİRSİZ

Soyuq qəlblər kimi yer üzü soyuq,
Hava da ruhuma yaddır elə bil.
Bağlanıb üzümə qapılar yaman,
Zaman da ögeydir, o zaman deyil.

Kiridə bilmirəm ağrılarımı,
Dayanmır bircə an gözümün yaşı.
İlahi, bilmirəm daşın dilini,
Deyilər, dərdini sən özün daşı.

Açılan səhər də təsəllim deyil,
Dənizə nə deyim, anlamır dəniz.
Fəqət içimdədir atəşim, odum,
Sızlayır ürəyim səssiz-səmirsiz.

06.04.2023.

